| | |
|---|---|
| Tapşırığın adı: | Layihənin Əlaqələndirmə Qrupunun satınalmalar üzrə meneceri |
| İcra olunduğu yer: | Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə (TSİİL), Layihənin Əlaqələndirmə Qrupu (LƏQ) |
| İcra müddəti: | 2011-2013 |
| Tapşırıq və vəzifələr: | Məsləhətçi aşağıdakı əsas tapşırıqları və vəzifələri yerinə yetirəcəkdir:<br>• TSİİL-də nəzərdə tutulmuş bütün növ satınalma prosesinin Dünya Bankı təlimatlarına, habelə Dünya Bankı təlimatları ilə ziddiyyət təşkil etmədiyi halda "Dövlət Satınalmaları Haqqında" Azərbaycan Respublikası Qanununa uyğun həyata keçirilməsini təmin etmək;<br>• Bütün satınalmaları Dünya Bankının prosedurlarına, Layihənin Dəyərləndirmə Sənədində və Kredit Sazişində verilmiş təlimatlara, habelə Dünya Bankının Tapşırıq Rəhbərinin və ya Satınalmalar üzrə Mütəxəssisinin spesifik göstərişlərinə uyğun təşkil etmək;<br>• Satınalmalar üzrə təlimatlara, metodlara, icra müddətlərinə və bu kimi digər məsələlərə dair alt-komponent koordinatorları (AKK) və Təhsil Nazirliyinin müvafiq rəhbər işçilərini zəruri materiallarla təmin etmək;<br>• TSİİL-in Satınalma Planını hazırlamaq/yeniləşdirmək, Təhsil Nazirliyinə, Dünya Bankına göndərilməsi üçün LƏQ direktoruna təqdim etmək;<br>• Hər bir satınalma tədbiri üzrə müvafiq fəaliyyət cədvəlini hazırlamaq, satınalmaların həyata keçirilməsində AKK-lərlə sıx əməkdaşlıq qurmaq, satınalmalarla bağlı bütün zəruri tədbirləri həyata keçirmək. |
| İxtisas tələbləri: | • Ali təhsili;<br>• Satınalmalar sahəsində azı 2-illik iş təcrübəsi;<br>• Dünya Bankının layihələrində və ya digər beynəlxalq layihələrdə azı 2 illik iş təcrübəsi;<br>• Azərbaycan və ingilis dillərini mükəmməl bilməsi;<br>• Kompüterdən mükəmməl istifadə bacarığı. |
| Tələb olunan sənədlər: | Tərcümeyi-hal (CV)<br>**Xahiş olunur, maraq göstərdiyiniz tapşırığın adını dəqiqliklə qeyd edəsiniz.** |
| Son təqdim edilmə tarixi: | 12 sentyabr 2011-ci il |
| Əlaqə üçün məlumat: | Azərbaycan Respublikasının Təhsil Nazirliyi, |

Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə,

Layihənin Əlaqələndirmə Qrupu,

AZ1008, Bakı şəhəri, Xətai prospekti, 49.

Əlaqələndirici şəxs: Elvin Rüstəmov

Əlaqə telefonları: 496-37-59/60; faks: 496-93-68.

Email: erustamov@ultel.net